## ALLAHDAN SORUŞAQ!

Kim qurbandı,kim şəhiddi?
Min fikir var,hamısı ziddi.
Qorxmursansa,ciddiciddi,
Gedək Allahdan soruşaq!

Xeyrin şərə çatmır gücü,
Pullu üçün pulsuzcücü...
Körpələrin nədir suçu?
Gedək Allahdan soruşaq!

Dəyişən yox,bunca getgəl...
Tavan əyridir,ya təməl?!
Qədərqismət,yoxsa əməl?!
Gedək Allahdan soruşaq!

...Alıb yorğun canımızı,
Bir axşam,ya bir dan üzü,
Atamızı,anamızı,
Gedək Allahdan soruşaq!

Kim azaddı quşlar kimi,
Kim yüngüldü boşlar kimi,
İzn istəyən daşlar kimi*
Gedək Allahdan soruşaq!

**Məzarlıqda baş daşları*
*2023*

## ÜÇDƏ BİR

Hər yan bağlıdır,bu soyuq
Hardan tutub hər yanını?
Qonşular narahat olar,
Səsli oxuma canını...

Nə təksən,nə də adamla,
Səfil,sərgərdan,avara...
Divarlar üstünə gəlir,
Gözün dirənir divara...

Yaşamırıq,vurnuxuruq
Tələdəki şiçan kimi.
Geriyə sayım başlayır
Dünyaya göz açan kimi...

Yuxudan ötrü ölürəm;
Yatmıram ki,yuxu görəm...
O qədər çox sıxıldım ki,
Birdim,indi üçdə birəm...

## XAOS

Bütün ölülər müflis olmuş dirilərdir!
Çılpaq ruh qalxır göyə...
İnsanlar bir gün belə dözmür
sevdiyinin ölüsünə;
Ya torpağa göndərirlər,ya da krematoriyə...
Ona görə,
Özləmişəm "yox"olmağı!
Doğulmazdan əvvəl
hər şey,YOX idi!
Var olduq,olmadıq,
"Ömür" deyilən başımıza
min corab toxudu.
Bir yanda bəsirət,bir yanda cəhalət...
Bir tərəfdə qüdrət,bir tərəfdə nifrət...
VƏ BİR QRAM AZADLIQ
üçün çəkilən zillət!..
Sonra...
Düşüncələrini qəlbinə,ev
həbsinə göndər və sus!
SOS!
İnsanlıqda düşüş,qiymətdə endirim!
Vicdan çatışmazlığı,
qeyrətdə endirim...
Və budur dünyanın mənzərəsi:
Kölələrin sonsuz narazılığı,
asilərin ümidsiz mübarizəsi,
mütilərin şükranlığı...
Ən pisi gecələrin deyil, səhərlərin qaranlığı...
Və daha da pisi,
Tənhalıqdan şikayət də bir dəb...
Əsil yalnızlığı bir sən bilirsən,
ya Rəbb!!!

## EPİLOQ:

Bizi ancaq inandıqlarımız aldadır...
Bizi ancaq sevdiklərimiz ağladır...
Bizi ancaq yazdıqlarımız anladır...
**Sergey Yesenin!..**

*Sonuncu şeirini qanıyla yazıb səhəri gün otel odasında intihar edən Sergey Yeseninə*

Ah çəkirsən,peyklər ucadan çəkir!..
Kimsə dərk edirmi niyə,
nədən yazırsan?!
Biri dərdqəmini bacadan çəkir,
Biri küləklərə verib göndərir...
Biri günə sərir göz yaşlarını...
sən,sən yazırsan!..
Yazırsan dostlara,dünyaya...
Yavaşyavaş, ölə-ölə...
Köpək balıqları üzür qanın iziylə...
Dərdlər yığılır... yığılır...
sonra qopur zəlzələ,
İçindəki dağıntıdan, söküntüdən yazırsan...
Döymək istədiyin qapını çaşıb,
Yolun apardığı səmtə çıxmısan...
Dünya partlamağa hazır bombadı,
Sən onun canından qəlpə çıxmısan!
Qəhvə,noxud,tarot,əl fallarında,
Qara yox, qırmızı rəngdə çıxmısan...
Dərdin nəydi sənin,
Yesenin?!.
Ölümdən bu qədər qorxusuz edən
nəydi, nə, səni?!
Yaşamaqdan qorxmursansa...
...bəlkə təzədən gələsən dünyaya?
Görəsən bu günün şairlərini...
Bəlkə də özünü sorğulayarsan,
Bəlkə də ruhunu yarğılayarsan!..
İntihar fikrini vurğulayarsan,
Sergey Yesenin?!

## OD VER!

Parada gəlmişik dünyaya,
Üstündən keçib altına gedirik...
Əsas odu durmuruq;
Zamanın özü kimi,
Axıb,axıb gedirik!
Bu yandan girib,
O yandan çıxıb gedirik.
Burda anarxiyadı,
Nə gələnə nəzarət,
nə gedənə baxan var.
Qocalıb,xərifləyib dünya
Şizofreniya əlamətləri çoxdan var!
Üz tutursan göylərə...
Görürsən ki,
"Ədalət sarayı" damır...
Haqq arayanın gördükləri pək işinə yaramır!..
Buhalaldır, buharamdır...
yeyirlər qəşəngqəşəng!
Bəlkə də təzə mileniumda
heç kim dünyadan getməyəcək;
Hamı burda qalacaq...
Heç kəs deməyəcək;
OKimdir? Bu nədir?
Ona sifət,
Buna ad ver...
Dünyanın qapısına
"Cəhənnəm" yazıb yapışdıracaqlar!..
Sonra da... Od ver!!!

## QOCA

Canına nə qədər maya qoyursan,
Maya quduranda can gedir, qoca!
Bir yanın yığırsan, bir yanı çökür...
Bir də baxırsan ki, yan gedir qoca...

Salır zarafata atmacaları,
Pozulub ömrünün son hecaları.
Qəlbində aparır ən ucaları,
Yumağa dönsə də,tam gedir qoca!..

Gənckən düz bilirdi,dağı,dərəni,
Getmir ayaqları,yola dirənir...
Dünən gözübağlı gördüklərini,
Görməkçün əlində şam gedir qoca.

Çox zaman ömründən olub narazı,
Bir çoxun xərcləyib, qalıb bir azı...
Daha nə üsyanı,nə etirazı,
Baş əyib taleyə,ram gedir qoca.

Qayıdır fikrində cavanlığına,
Nə günah edibsə,ver xamlığına..
Şirin xəyal qoşur yavanlığına,
Damağında duzlu tam gedir qoca...

Bu günü unudur,dünən yadında!
Keçmişdən nə desən,dənən,yadında!
Hətta körpəliyi eynən yadında,
Gedir "oppaya","namnam " gedir qoca...
*14.11.21*

## DAŞ

Heç daşın altına əlin qoyan yox,
Hamının ovcunun içindədi daş.
İnsanı həyatda tutan o idi,
Onunla başladı birinci savaş.

Kim qolu gücluysə, böyük daş atdı.
Daş mini məhv etdi,biri yaşatdı.
Ən böyük tikə ən zorbaya çatdı,
Tikə üçün satdı qardaşı qardaş!..

Gün gəldi,tarixlər daşa qazıldı,
Ən çox qan içənlər başa yazıldı!
Həmzəylə Koroğlu qoşa yazıldı,
Başlar ayaq oldu,ayaqlarsa baş!

Allahlar etdiyi daş savaşından,
Piramidlər qalıb milyard yaşında.
Ulduzlar qarovul çəkir başında,
O,Yerə tarixdi,göylərə yaddaş!
*2022*

## BU BULUD DAĞLARI, BU DAĞ BULUDLAR...

Sıralanıb gedir sonsuza qədər
Bu bulud dağları,bu dağ buludlar.
Arxadan ya Günəş,ya Ay boylanar,
Həya,ismət rəmzi duvaq buludlar.

Pozub sərhəddini neçə ölkənin,
Ağ bayraq qaldırıb,açıb yelkənin.
Yol gəlib yorulub, dağa söykənib,
Bu toppuş,bu gonbul,uşaq buludlar...

Bərəkət simvolu,varı icində,
Yağışı yağmuru,qarı içində,
Xeyri,bərəkəti,nuru içində,
Şıdırğı rəqs edər oynaq buludlar.

Ruhum varlığından sərinlik qapır,
Payız da deyil ki,gələ çatqapı.
Yayın qızmarında sərin yer tapıb,
Düşəcəklər bizdən uzaq buludlar.

Bir də baxırsan ki,gəlir qoşunla,
Qıssa, silah,sursat,topla,qurşunla,
Varacağın yerə çıxsan maşınla,
Səndən əvvəl çatar qıvraq buludlar!

İkili vətəndaş özəlliyi var!
Dağ kimi tutumlu, saxlar nəyi var,
Ehh...bu da son bahar, ağlar nəyi var,
Bu bulud dağları,bu dağ buludlar...

## ZAMANDA YOLCULUK

Zaman deyilən şey yoxdur əslində,
Ömrümüzü bilmək üçün yaratdıq.
Hər nəsnəyə bir ad qoyduq,var etdik,
Balans qoyduq, silmək üçün yaratdıq.

Canlı gəldi,cansız getdi gedənlər,
Ad aldı,adsansız getdi gedənlər,
Tutammadıq,onsuz getdi gedənlər,
Doğulanda ölmək üçün yaratdıq.

Unutduq ki,gedəriyik,faniyik,
Ya günahkar,ya günahsız, caniyik!
Ateistik,deistik,ruhaniyik,
Dini haqqa gəlmək üçün yaratdıq!

İnsanları yaxşı deyə,pis deyə,
Vaxtaşırı çıxardıq tərəziyə.
Necə,nə cür,harada,kim,nə,niyə,
Sorub, cavab almaq üçün yaratdıq!

Ağlımızın almadığı şeyləri,
Mütləqdir ki,ağla salan var biri!
Milyard illər açılmayan bu sirri,
Yaradanı bulmaq üçün yaratdıq.

## ÖVLAD

Ölən cismimizdi,övlad,
Ruhumuz dipdiri gedir.
Dünya yol keçən durağı,
Biri gəlir,biri gedir...

Doğulan tək qaçır çağa,
Vaxt bitincə yox qadağa!
Əvvəlcə üzü qabağa,
Sonra geri geri gedir...

Payına düşən bir ömür;
Hərə bir sürətlə sürür.
Saman altından su yürür,
Üstdə saman quru gedir!

Əslində ruh,bir laməkan!
Qəfəsidir görünən can!
Canın ki,qurtarır candan,
Arınıb dupduru gedir!

Göyə, gələn kitablara,
Günahlara,savablara
Tapılmayan cavablara
Verilən min soru gedir!..
*2023*

## ƏRƏFƏ

Küləklər ahdan başladı.
Yağışlar şehdən başladı,
Adəm ilə Həvva çaşdı,
Dünya günahdan başladı....

Bir günah da biz elədik,
Elə bildik düz elədik,
Çatana "sevirəm" deyib
Sözü sevimsiz elədik...

Nə qədər eşq,o qədər qəm!
Belə gəlib dünya,aləm.
Kimi bizi qaraladı,
Kiminə biz cəkdik qələm...

Keçmir bu Yerdə nazımız,
Eyzən qəm çalır sazımız.
Torpaq payın alıb susur
Razımızla narazımız...

Günəş keçir o tərəfə:
Xəbərdir,qoyulur zərfə.
Səhər əyan olacaq,bu
nəyə son,nəyə ərəfə...
*2023*

## ZƏLZƏLƏ

Göydə zəlzələ oldu,
Hər yer darmadağındı.
Əsrin normasın kecdi
Bir gecəlik dağıntı...

Ağlımız başımızdan
Yenə izinsiz çıxdı....
Səbuhi Rəhimlinin
Proqnozu düz çıxdı...

Şimşəklər at oynatdı,
Peyklər "kino" çəkirdi.
İşıq çaşıb qadağan
olmuş zonaya girdi...

İcazəsiz mitinqə
Çıxdı göy cisimləri!
Kütlə başçı bəllədi
Yenə də Yupureri.

Müharibə istədi
Mars həmişəki kimi...
Xəyalımı geriyə
səslədi Yer çəkimi.

Yuxum yaxşı deyildi,
Bu gecə tamam bərbad,
"Bərpa işləri gedir
Göydə bəlkə bu saat..."

Yerin də büdcəsindən
Ayıracaqlar göyə.
Yerdəki aclar qaldı
Başına döyədöyə...
*2023*

## DƏNİZ

Dalğa sahilə at sürür,
Qayalar dəftərin dürür!
Yenə dəli dalğa bu hürr
Sahilin sərhədin pozdu...

Birbirini yenəyenə,
Qaçdılar,qovdular yenə.
Nə qədər yudular,yenə
Qayalar elə bombozdu..

Gəmilər dopdolu gəlir,
Özü açıb yolun,gəlir!
Xətləri anında silir,
Bu dəniz çox sorumsuzdu...

Gecə gündüzü devirib,
Qum saatın tərs çevirib...
Bu şorbanı kim bişirib?
Əti şitdi,suyu duzlu...
*2023*



*Nübar*
***ELDARQIZI***